**Məmmədli Q.** Şəhadət zirvəsinə yüksələn kapitan // Respublika. - 2025. - 28 yanvar. - **№ 18**. - S. 11.

**"Ağlamayın!.. Axı siz niyə ağlayırsız?.. Mənim atam Vətən uğrunda şəhid olub! Torpaqlarımızın azadlığı yolunda qurban gedib! Döyüşsüz, mübarizəsiz, ölümsüz düşməni necə qovmaq, işğala son qoymaq olar?! Ağlamayın...".**

Bu sözləri şəhid kapitan Fərid Dursunovun dəfni zamanı 10 yaşlı oğlu İsa hönkürən anasına, nənəsinə üz tutaraq gözyaşı içərisində söyləyib. Elə beləcə deyib və qəhrəman atasının yolunu davam etdirəcəyinə söz verib, özü də daim ana Vətənin keşiyində duracağına and içib.

Bəli, Azərbaycan ona görə yenilməzdir ki, belə oğulları var, övladlarının oğulları, qızları da ulu yurd üçün mübarizəyə hazırdırlar, hətta ana bətnindəkilər, zərr aləmindən qopub bu cahana yön alanlar da torpaq, xalq, el-obadan ötrü canlarını, qanlarını əsirgəməzlər...

Şəhid zabitin atası Fazil kişi ilə çalışdığı "Zaqatala AGRO İndustry" MMC-nin tütün qəbulu məntəqəsində tanış olub söhbətləşdik. Çoxillik jurnalist təcrübəsi və fəhmi ilə qarşımdakı şəxsin sıradan bir adam olmadığını, dünyanın sərt üzünü gördüyünü, həyatın çoxsaylı çətin imtahanlarından keçdiyini hiss edirəm. Söhbət əsnasında ağsaqqalın 1961-ci il aprelin 1-də doğulduğu, 1979-80-ci illərdə Əfqanıstan savaşının alovlarından keçdiyi məlum olur. 1984-cü ildə Bakı Yeyinti Sənayesi Texnikumunu tütünçü-texnoloq ixtisası üzrə bitirib. Qax tütün qəbulu məntəqəsində, doğulub böyüdüyü Qorağan kəndində baş aqronom işləyib. Mirvari xanımla ailə həyatı qurub, Allah bu ailəyə 3 oğul qismət edib, üçü də hərbçi peşəsini seçib. Üçü də milli ordu sıralarında gənclərin hərbi vətənpərvərlik ruhunda, peşəkar hərbçilər səviyyəsində yetişmələrinə, silahların, hərbi texnikanın sirlərini öyrənmələrinə töhfə veriblər. 2020-ci il sentyabrın 27-də başlayan Vətən savaşına, düşmənlə ölüm-dirim savaşına atılıblar. Sentyabrın 29-da tale bahadırlar ailəsini növbəti dəfə ağır sınağa çəkib - kapitan Fərid Dursunov Murovdağ istiqamətində gedən döyüşlərdə mərdlik göstərərək şəhadət zirvəsinə yüksəlib.

Nə qədər səbirli, dözümlü, iradəli olsa da, ata üçün bala itkisi çox ağırdır, üzücüdür. Fazil dayı da şəhid oğlu haqqında çətinliklə danışır, tez-tez ah çəkir, qəhərlənir, fikrə dalır, qayğılı gözləri uzaqlara zillənir... Onun xəyallarında Fərid yenidən doğulur, böyüyür, boya-başa çatır... 1992-2003-cü illərdə Qax rayonu Qorağan kənd tam orta məktəbində oxuyur. Zabit olmaq arzusu ilə sənədlərini Azərbaycan Ali Hərbi Məktəbinə təqdim edir. 2008-ci ildə təhsilini bitirib ölkə xaricinə təlimlərə

göndərilir, yüksək hazırlıqla geri qayıdıb hərbin ən çətin sahələrində işləməyə başlayır... Xidmət dövründə çoxsaylı təltiflərə - "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Ordusunun 100 illiyi" medallarına layiq görülür...

Ata ürəyini qovuran xatirələr bizləri də yandırıb yaxır. Lakin bütün bu ağrı-acını böyük bir qürur, fəxr, vüqar, əzəmət müşayiət edir: igid oğullarımızın qurban getməsi müqabilində 30 ildən çox yağı tapdağında inləyən müqəddəs torpaqlarımız azadlığa qovuşdu. Həmin ərazilərdə təmir-bərpa-quruculuq işləri gedir, didərgin düşən məcburi köçkünlər yurd-yuvalarına qayıdırlar. Ağsaqqal dərindən köks ötürüb elə bütün sadalananlarla, möhtəşəm Zəfərimizlə təsəlli tapdıqlarını bildirir, "Təki Vətən yaşasın!" deyir.

Şəhidimizin iki qardaşının da Vətən savaşında iştirakı və qazanılan qələbədə böyük xidmətləri Dursunovlar ailəsinin, Qorağan kəndinin, bütün Qax rayonunun qürur, fəxr yerinə çevrilib. Fazil kişi Vətən uğrunda canlarını əsirgəməyən digər iki igidindən də söhbət açır: "Fəridin müharibəyə həsr olunan bir həyatı vardı. Zabit kimi 15 illik fəaliyyəti dövrü - Ağdamdan Daşkəsənədək cəbhə bölgəsində keçmişdi. Vətəninə, torpağına bağlı insan idi. Əsgərləri də onu çox istəyirdilər. Deyirdilər ki, komandir, sən olanda biz heç nədən qorxmuruq, çəkinmirik. Kiçik oğlumun idarə etdiyi texnika Ağdərə tərəfdə minaya düşmüşdü. Texnikaya ziyan dəysə də özləri yaralanmadan salamat qurtulmuşdular. O biri oğlum isə Tovuzda xidmət edirdi, İyul döyüşlərinə də qatılıb. Fərid kiçik qardaşına demişdi ki, "Müharibə başlayan gün çayda dəstəmazını alıb namazını qılarsan, əyləşərsən texnikaya, nə geriyə baxarsan, nə də ölüm haqda fikirləşərsən, ancaq qabağa irəliləyirsən, inşallah Qarabağda görüşərik!". Həyat yoldaşına ünvanladığı, hərbi hissənin həyətində saxladığı maşına qoyduğu məktubda "Məndən nigaran qalmayın, şəhid olsam özümü xoşbəxt sayaram" yazıb. İşlədiyi dövrdə maaşları ilə müəyyən qədər pul toplayıbmış, həmin məktubda yığdığı məbləğin üstünü düzəldib ev almağı, övladlarını kirayələrdə böyütməməyi vəsiyyət edib. Vətəni sevməkdən doymurdu. Azərbaycana məhəbbətini şəhadəti ilə bildirmək istəyirdi ki, torpağa nə qədər bağlılığını təsdiqləsin. Belə bir zabit idi Fərid Dursunov. Onun şəhidliyindən sonra Prezidentimizə məktub yazdım. Oğlumun davamçısı olaraq döyüşlərdə iştiraka hazır olduğumu bildirdim. Biz cənab İlham Əliyevin daxili və xarici siyasətini, gördüyü işləri hər zaman dəstəkləyirik".

Fazil dayı yaxşılıqları unutmamağa görə söhbət əsnasında bir məqamı da vurğuladı - şəhidlik məqamına ehtirama, şəhid ailələrinə göstərdiyi qayğıya, onların ailə

üzvlərinin və qazilərin işlə təminatına köməyə görə Yaponiyanın "Tet İnternational Development" şirkətinin törəmə müəssisəsi olan "Zaqatala AGRO İndustry" MMC-nin direktoru Emin Əsədova minnətdarlığını bildirdi.

Fərid Dursunov 1986-cı il iyulun 26-da Qax rayonunun Qorağan kəndində dünyaya göz açmışdı. Hələ uşaqlıqdan həyatda, filmlərdə gördüyü zabit formasının, paqonlardakı səkkizguşəli ulduzların cazibəsində idi. Televizorda hərbi serialları, verilişləri izləyəndə, oyuncaq silahlarla dava-dava oynayanda, evdə Qarabağ mövzusunda söhbətləri dinləyəndə gələcəkdə hərbçi olacağını qətiləşdirmişdi. Necə deyərlər, niyyətin hara, mənzilin də ora. Nəhayət, ürəyində bəslədiyi arzuya çatdı, bu mürəkkəb, amma şərəfli peşə yollarında addım-addım irəlilədi, müxtəlif vəzifələrdə çalışdı, kapitan rütbəsinə yüksəldi.

Sevib-seçdiyi Məryəm xanımla ailə həyatı qurdu, İsa və Ömər adlı iki oğlu Vətənə yadigar qalıb. Hazırda Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyində bələdçi vəzifəsində işləyən şəhid xanımının kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yayımlanan müsahibələri əsl dayaq, ismət, qəhrəmanlıq mənbələridir. M.Dursunova mərhum həyat yoldaşının yaxşı, məsuliyyətli, qayğıkeş ər, ailə başçısı, ata olduğu ilə qürur duyduğu, həyatda belə bir insanla rastlaşdığına görə özünü xoşbəxt saydığı, bir də dünyaya gəlsəydi yenə də Fəridi seçəcəyi, aralarındakı əhd-peyman barədə danışır: "O həmişə ən qaynar nöqtələrdə, cəbhə xəttində olurdu. Çox narahat, nigaran idim, həmişə mənə təskinlik, ürək-dirək verərdi ki, müqavimətsiz, savaşsız işğala son qoyulmayacaq, bütün dünya lənətə gəlmiş daşnakların arxasındadır, heç bir dövlət o torpaqları ermənilərdən alıb bizə qaytarmayacaq, ancaq özümüz döyüşməliyik. Deyirdi ki, hər dəqiqə, hər an döyüşə, düşmən üzərinə atılmağa hazırdırlar, Ali Baş Komandanın əmrini gözləyirlər. Hətta şəhid olacağı təqdirdə, ağlayıb-sızlamamağımı, uşaqlara yaxşı baxmağımı, Vətən, xalq naminə təhsil, tərbiyə verməyimi də tapşırmışdı. Biz Fəridlə qürur duyuruq, tək o yox, ölümün gözünə dik baxan bütün şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz, səngərdə Azərbaycanımızın keşiyini çəkən oğullarımız igid aslanlardır. Yüz il, min il sonra da gələcək nəsillər tərəfindən fəxarətlə xatırlanacaqlar! Tanrı millətimizi, dövlətimizi, ölkəmizi qorusun!".

Bəli, Məryəm xanım, Fərid də yenidən b

u dünyaya təşrif buyursaydı, sizin belə ruhlandırıcı, mənəvi qida, güc dolu sözlərinizdən qüvvət alıb təzədən mücadiləyə qalxar, təkrarən bir də şəhidlik zirvəsini fəth edərdi...

Kapitan Fərid Dursunov Murovdağda gedən qanlı döyüşlərdə mərdliklə savaşıb, 2020-ci il sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində "Koroğlu 3" döyüş mövqeyi uğrunda gedən qızğın mübarizədə şəhidlik məqamına ucaldı. Ertəsi gün - 30 sentyabrda doğulub-böyüdüyü Qax rayonunun Qorağan kəndində canından da artıq sevdiyi Vətən torpağına tapşırıldı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhid zabitimiz Türkiyənin "Qalatasaray" futbol klubunun sadiq azarkeşi imiş. Onun vəsiyyətlərindən biri də şəhidliyi zəminində qəbri üstdə Azərbaycan bayrağı ilə yanaşı, "Qalatasaray" bayrağının da asılması olub. Bu məsələ sosial mediada ictimailəşəndən sonra idman klubu rəsmi "X" hesabında kapitan Fərid Dursunovun məzarının fotosunu paylaşaraq başsağlığı verib. Ardınca isə "Qalatasaray"ın prezidentinin köməkçisi Yusuf Günay şəhidin ailəsi ilə əlaqə saxlayaraq, öz adından və bütün türk xalqı adından başsağlığı çatdırıb. "Komandaya azarkeşlik etmək izahedilməz hissdir, yağışda, palçıqda oyuna gələn insanlar var - ölümünə sevgi... Qarabağ savaşı şəhidi Fərid Dursunovun atası ilə danışdım. Bakıdan uzaq yerdə yaşayırlar. Allah heç kimə övlad acısı verməsin, atəş düşdüyü yeri yandırar. Fazil bəy zəngimə çox sevindi, "övladım yaşasaydı, çox xoşbəxt olardı" dedi. Eyni hisslər məni də təsirləndirdi, bu bir tutqudur, digər komandalarımız üçün də ola bilər. İnsan təkcə maddi şeylərlə yaşamaz, bizi mənəvi dəyərlər, "Qalatasaray"a sevgimiz saxlayır. Şəhidimiz bizi çox duyğulandırdı, milli hissləri bir araya gətirdi. Nur içində yatsın, Allah rəhmət eləsin" - bu sözləri isə "Qalatasaray" klubunun prezidenti Mustafa Cengiz deyib.

Futbolçular şəhid övladlarına maraqlı bir jest də ediblər: 2023-cü il martın 26-da Bakıda keçirilən "Qarabağ" - "Qalatasaray" yoldaşlıq oyununda İsa və Ömər Fərid oğlu Dursunovlar meydana çıxaraq ünlü komandaların hədiyyələrini alıblar. Onlar qəhrəman ataları ilə həmişə fəxr edəcəklər.

Allah cəsur kapitan Fərid Fazil oğlu Dursunovun, bütün şəhidlərimizin məkanını cənnətdə qərar versin!